**Dan yeri**

Qanun deyənlərin sinələrindən
Qanun fışqıranın qanıydı o gün.
Günəşə açılan pəncərələrin
Gülləyə açılan günüydü o gün.

Gülləyə tutulan bu ana yurdun
Qocası, cavanı, uşağı oldu.
Yolların içində qızıl qanları
Yolların qırmızı işığı oldu.

Hər ölən güllədən ölmədi elə,
Çox ürək, bu dərdə dözmədi durdu.
Bu işıq önündə ürək dayandı,
Bu işıq önündə durmadı ordu.

Efirdən danışan qan içənə bax!
Yüz hiylə gizlənib gözlərində də.
Qırmızı-qırmızı sözlər danışır,
Ağzının qanıdır sözlərində də.

Batıb sözləri də tökdüyü qana,
Dünyanın gözünə çöp tutar yoxsa?
Küçələrdən qanı təmizləməkçin
Qanı sözlərinə hopdurur yoxsa?!

Al qana boyanıb qızarır Bakı,
Çəkir sinəsinə çəkilən dağı.
Yox! Bəlkə, Dan yeri qızarır belə,
Bəlkə, Azərbaycan günəşi doğur?!

Mehdi G. Dan yeri : şeir // Ulduz. – 1991. - №1. - S. 28-29.